_________________RAYON MƏHKƏMƏSİNƏ

**İddiaçı**: ___________ (adı , soyadı, ata adı)
Ünvan: : _______________
Əlaqə telefonu: :  ___________

**Cavabdeh**: : ___________  (adı , soyadı, ata adı)
Ünvan: : _____________

Əlaqə telefonu: :  ___________

# İDDİA ƏRİZƏSİ

*(aliment tələbinə dair)*

**İşin faktiki halları:**

Mənimlə cavabdeh şəxs arasında _________-ci il tarixdə nikah bağlamışdır və bu nikah ___ saylı  ___________ tarixdə pozulmuşdur.

Cavabdehlə nikahımızdan _______________ _________-cu ildə övladlarımız ___________________ oğlu və ___________-ci ildə isə _____________________ qızı döğulmuşlar.

Birgə nikahımızdan anadan olmuş _______ -ci il təvəllüdlü ____________ (övladın adı,soyadı,ata adı) mənim yanımda yaşayır.

Hesab edirəm ki, _________-ci il təvəllüdlü  (övladın adı,soyadı.ata adı) saxlanılmasına görə cavabdehdən hər ay sabit pul məbləğində __ (alimentin məbləği) manat aliment tutularaq mənə ödənilməlidir.

**Tələbin hüquqi əsasları:**

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur.

“Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası qanunun 19-cu maddəsinə əsasən valideynlərin uşağın tərbiyyəsində bərabər hüquq və vəzifələri vardır. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 75.1, 75.4-ci maddəsinə əsasən valideynlər uşaqlarını saxlamağa borcludurlar. Valideynlər uşaqlarını saxlamadıqda uşaqlarının saxlanması barədə vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.

Qeyd olunan Məcəllənin 78.1-ci maddəsinə müvafiq olaraq valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, eləcə də aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya da qazancın (gəlirin) hamısını və ya bir hissəsini həmin valideyn natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, habelə alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin marağını əhəmiyyətli dərəcədə pozduğu başqa hallarda, uşaqların saxlanması üçün vəsait tutulmasını tələb edən şəxsin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda, həm sabit pul məbləğində, həm də bu Məcəllənin 76-cı maddəsinə uyğun olaraq qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər.

Cavabdehin qazancı qeyri-müntəzəm və dəyişkən olduğundan hesab edirəm ki, uşağın saxlanması üçün ondan hər ay  (alimentin məbləği) manat sabit pul məbləgində aliment tutulmalıdır.

Yuxarıda sadalanan nikahın pozulmasına dair ailə hüquq münasibətlərinə dair maddi hüquq normaları cavabdehlə aramızda olan nikahın pozulması üçün qanunvericiliklə nəzərdə tutulmuş hüquqi əsasları yaradır.

Beləliklə, yuxarıda sadalanlara və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 149-150-ci maddələrinə əsasən məhkəmədən

**XAHİŞ EDİRƏM:**

1. ________ -ci il təvəllüdlü _________ (Övladın adı,soyadı,ata adı) saxlanılmasına görə cavabdeh _________ (Cavabdehin adı,soyadı,ata adı) hər ay sabit pul məbləğində ____ (alimentin məbləği) manat aliment tutularaq mənə ödənilməsi barədə qətnamə qəbul edəsiniz.

**Qoşma**:

1. İddia ərizəsinin surəti – 1 nüsxədə;
2. Nikahın pozulması barədə şəhadətnamə;
3. Doğum haqqında şəhadətnamənin notarial təsdiq edilmiş surəti;
4. MAPS-dan arayışlar;

**5.** Şəxsiyyət vəsiqəsinin surəti;
**6.** Dövlət rüsumunun ödənilməsi barədə qəbz.

*İmza:* __________

*Tarix:* __________